Yeni Azərbaycan.- 2022.- 6 noyabr.- S.8.

# Şərqdə ilk...

## Sürətli və tıxacsız yeraltı nəqliyyat vasitəsi

*Səidə RƏHİMLİ*

Hər gün səhərlər işə və ya dərsə tələsərkən, axşamlar evə qayıdarkən yerüstü nəqliyyatda olan tıxaclar bizi daim gecikdirir. Yeraltı nəqliyyat vasitəsi - metrolar isə tıxacların olduğu saatlarda belə bizi istədiyimiz yerə sürətlə çatdırır. Buna görə də çoxlarımız metrodan istifadəyə üstünlük veririk.

Bu gün Bakı metropoliteninin açılışından 55 il ötür. Bakı şəhərində metropolitenin tikintisi 1937-ci ildə qərara alınsa da, bu istiqamətdə işlərin görülməsi fərqli səbəblərdən xeyli gecikdi. XX əsrin 30-cu illərində Qafqazın əhalisi çox olan sənaye, mədəni və elmi mərkəzlərindən biri olan Bakı şəhərinin yenidən qurulması üzrə Baş Planında metropolitenin tikintisi qərara alındı. Lakin mərkəzdən olan təzyiqlər və qadağalar, baş verən müharibə bu istiqamətdə görülən işlərin başa çatmasını ləngitdi. 1941-1945-ci illərdə olan müharibə səbəbindən metropolitenin tikinti işləri təxirə salınmalı oldu. Müharibədən 2 il sonra, 1947-ci ildə layihə üzərində işlər başladılsa da, 1953-cü ildə tikinti işləri müvəqqəti dayandırıldı. Daha sonra 1960-cı ildə metropolitenin tikintisi yenidən davam etdirildi. 1966-cı ildə tərkibində hərəkət, hərəkət qatarları, yol və tunel qurğuları, sanitariya texnikası və elektro-mexanika, işarəvermə və rabitə, material-texniki təminat xidmətləri daxil olmaqla 6 xidməti olan Bakı Metropoliteni İdarəsi yaradıldı.

Nəhayət, 1967-ci il 6 noyabr tarixində Bakı metrosunun 5 stansiyası və 9,2 km-lik yeraltı xətləri olan birinci növbəsi istismara verildi:



* “Bakı Soveti” (indiki “İçərişəhər”);

* “26 Bakı Komissarı” (indiki “Sahil”);

* “28 Aprel” (indiki “28 May”);

* “Gənclik”;

* “Nəriman Nərimanov”.

İlk qatarı idarə edənlər maşinist Salman Ələkbərov və maşinist köməkçisi Akif Mirzəyev oldu. 25 noyabr 1967-ci ildən metronun daimi istismarına və sərnişinlər üçün qatarların müntəzəm hərəkətinə başlanıldı.

Beləliklə, Türk ölkələri arasında ilk metropoliten Bakıda quruldu. Bakı Metropoliteni 1967-ci ildə Şərqdə ilk metro kimi “Ginnesin Rekordlar Kitabı”na düşdü.




**2030-cu ilə qədər Bakıda əlavə olaraq 50 metro stansiyası tikilməlidir**

Bu gün Bakı əhalisi metro vasitəsilə sürətli şəkildə və tıxaca düşmədən istədiyi yerlərə rahatlıqla çata bilirlər. Bakı Metropoliteninin bugünkü səviyyəyə çatdırılmasında ulu öndərimiz Heydər Əliyevin və onun layiqli davamçısı Prezident İlham Əliyevin müstəsna xidmətləri olub. “Metro Bakı üçün böyük bir nemətdir, böyük bir sərvətdir”, - deyən Heydər Əliyevin rəhbərliyi dövründə 14 metro stansiyası tikilib istifadəyə verildi. Prezident İlham Əliyev tərəfindən hazırda qarşıya qoyulan məqsəd belədir: 2030-cu ilə qədər Bakıda əlavə olaraq 50 metro stansiya tikilməlidir.

Bu istiqamətdə işlər görülür və ölkəmiz hər sahədə olduğu kimi bu sahədə də daim inkişaf edir.